Fikir bayraqlarının son günü və sonrası

17 mart 1940-cı il. İstanbulun saysız-hesabsız küçələrindən birində bir ev yer almışdı. Bu ev elə bil Azərbaycan Xalq Cümhuriyyətinin bərqərar olduğu yer idi. Nəyə görə, çünki, Cümhuriyyətin yaşadıldığı hər yer AXC ərazisi idi. Amerikadan Çiliyə, Çilidən Fransaya, Fransadan Almaniyaya və Almaniyadan Türkiyəyə qədər bu ərazi uzanırdı. Bu evdə tarix yaşayırdı. Bu evdə tarix yazılırdı. Bu evdə tarixi yazan və yaşayan yaşayırdı. Bu ev əsl Azərbaycan evi idi. Bu ev özü Cümhuriyyət idi sanki. Bu evdə yaşayanlar bir xalqı təmsil edirdilər. AZƏRBAYCAN XALQINI!

Bu evdə Azərbaycanın böyük mütəfəkkiri, bizim şanlı Bayrağımızın fikir rəssamı Əli bəy Hüseynzadə yaşayırdı. O, burada Əli Hüseyn Turan adı ilə yaşayırdı. Burada təkcə Əli bəy yox, oğlu rəssam Səlim Turan və onun ailəsi yaşayırdı.

Əli bəyin axır vaxtlar səhhətində problemlər var idi. Onun tez-tez başı fırlanırdı, ürəyi tuturdu, yerə yıxılırdı. O qədər ağrıyırdı ki, həkimlər ona diaqnoz qoymaqda çətinlik çəkirdilər. O, özünə diaqnoz qoymuşdu. Əli bəy özünə Vətəndə Vətənsizlik diaqnozu qoymuşdu. O, Azərbaycanı Ana yurdu bilirdisə, Türkiyəni Ata yurdu bilirdi. Lakin, bir insan anadan qopsa həyatdan köklü-köməcli qopar axı. Həyatının tarazlığı pozular. Əli bəydə də bu özünü büruzə verirdi. 1930-cu illərdəki repressiya xərçəng yaradan radiasiya kimi Əli bəyə Vətəndə Vətənsizlik xəstəliyini yoluxdururdu. Əli bəy repressiyadan qaça bilmişdi. Tək yolu Türkiyə idi. Ata yurdda darıxmasa da, gec-tez xəstəliyə yoluxduğunu bildi. Ya ömrü boyu bu xəstəliyə düçar olacaqdı, ya da Sovetlər dağılana qədər. Axır vaxtlarda bu, artıq bəla idi. Onun başında və ürəyində bu ağrı var idi. Ona görə də, Cümhuriyyət albomuna baxmırdı. Çünki, orada Sosialist fraksiyasının üzvləri ilə də şəkil çəkdirmişdi. Sosialistlər fraksiyasından 2 nəfəri bəyənirdi: İbrahim Əbilovu və Əkbər ağa Şeyxülislamovu. O, Əbilovla can bir qəlb idi. Ölənə qədər Əbilovu tərk etməmişdi. Hətta, Əbilovun qızına Atatürk ad qoyarkən də o Əbilovun yanında idi.

Əli bəy Hüseynzadənin və oğlu - rəssam Səlim Turanın məzarı

İndi isə əsl mətləbə keçək.

Əli bəy nəsə, bu gün öləcəyini fikirləşirdi, elə bil ürəyinə dammışdı, hətta yuxusunda da görmüşdü. Görmüşdü ki, parlament binasının yaxınlığında cansız halda uzanıb. Çingiz İldırım və bütün sosialistlər onun qəbrini qazırlar. Sonra birdən qəbir hazır olur və onlar qəbirin yanında çalıb-oynayırlar. Əli bəy bu yuxudan sonra miras və vəsiyyət barədə düşünürdü. Görəsən, o, nə qoyub gedəcəkdi bu dünyada və kimə qoyub gedəcəkdi, axı kimi var idi? Amma var idi. Belə ki, Əli bəy daha çox nəvəsi Əlini fikrində canlandırırdı. Əli çox şən, şirin səsli bir uşaq idi. 7-8 yaşı olardı, ya olmazdı. O, həmişə babasını güldürmək və öz fərasətini, bacarığını babasına göstərmək üçün türk dilində danışar, dəridən qabıqdan çıxardı. Ona görə də, Azərbaycan dilində danışanda sözlərinə qəsdən bir az da türk sözləri əlavə edərdi. Amma, babasına heç vaxt pis münasibət bəsləmirdi. O, mələk uşaq idi.



Əli bəy Hüseynzadə

Əli bəy həmin gün divanında əyləşdi, gizlətdiyi sandığını götürdü və nəvəsini çağırdı: - Nəvəm mənim, adaşım Əli bəy, gəl görüm. Sənə bir şey verəcəyəm. Bu çox qiymətli şeydir. Amma qızıl və pul deyil.

-Gəliyorum, dədəcan. Mən paranı və altunu təklif edəcəyinizi fikirləşməmişdim. Amma çox maraq ediyorum. Nə verəcəksiniz?

-Gəl, bilərsən.

Kiçik Əli pişik cəldliyi ilə babasının yanına qaçdı. Baba Əli sandığı nəvəsinə göstərdi.

-Hə, dədəcan. Nə verəcəksin?

-Bax bunun içindəkiləri; O, sandığı yenə göstərdi.

-Aç da dədə, öləcəyim maraqdan.

Baba Əli bəy sandığı açdı. Sandıq dürr idi. Sandığın içində Üçrəngli Bayrağımız var idi. Bir də böyük bir albom.

-Vay canına! Bu nədir böylə dədə?- heyrətindən nəvə Əlinin ağzı açıq qalmışdı.

-Cümhuriyyətin rəngidir və qanla boyanıb.

-Bu təzə rəngdir?

-28 may 1918-ci ildə boyanıb. Bəs soruş görüm bunu kim yaradıb?

-Kim yaradıb?

-Sənin dədən Əli bəy Hüseyn Turan.

-Dədəəm!-deyə nəvə babasını qucaqladı.-Bəs bu nədir?

-Albom. Əzizim, bu Cümhuriyyət albomudur.

-Aç dədə, aç bakalım.

Əli bəy albomu açdı.

-Bax, burada mən tələbələrimlə birgəyəm. 1926-cı ildə, Bakıda çəkilib bu şəkil.

-Məni Baküyə götürürsənmi?

-Yox, qoymurlar, sovetlər bizi ora buraxmazlar.

-Mən bu halı düzəldərəm.

-İnşəAllah oğlum. Bilirəm ki, sən düzəldəcəksən. Bax, burada da sənin mütəfəkkir babalarınla birlikdəyəm. Bax bu, sənin Salman babandır, Salman Mümtaz baban. Onun haqqında sənə çox danışmışam. Burada da Cümhuriyyətin Parlament üzvləri ilə birgə şəkil çəkdirmişəm. Bax bu Məhəmməd Əmin Rəsulzadə babandır. Bu da İbrahim babandır.

-Mən İbrahim babanı görmək istəyirəm. Məhəmməd Əmin babanı da.

- Oğul, İbrahim baba dünyadan neçə il əvvəl köçüb. Məhəmməd Əmin babanın evinə də dünən getmişik. O necə baba imiş ki, sən hər gün onu görmək istəyirsən? Deyəsən mən sənə yaxşı babalıq etmirəm. -Əli bəy gülümsədi və nəvəsinin başına əli ilə sığal çəkdi.

Kiçik Əli bəy bütün şəkillərə baxdı. Axırıncı şəkil isə onun ürəyini yaxdı. Dədəsinin Çingiz İldırımla olan şəklini görəndə isə rəngi qaçdı.

-Dədə, bu şəkildə kiminləsin?

-İndiki zamanda mənim üçün bir "Vətən xaini" ilə o vaxtı bu şəkili çəkdirmişəm. Bu şəkili çəkdirən vaxt o, hələ iç üzünü açmamışdı. -Əli bəy bir az duruxandan sonra qışqırdı; AXC-ni beləliəri satdılar! Bayrağımızı, mənim yaratdığım bayrağımı beləliəri cırdılar! Yurdum...mənim yur...dum...-Əli bəy qırıq-qırıq bu sözləri dedikdən sonra palıd ağacı kökündən ayrılır kimi yerə yıxıldı. Eynəyi də gözündən yerə düşüb qırıldı.

Kiçik Əli gözü ilə gördüklərinə inanmadı və qıy çəkdi: -Dədəəm! Yetişin, öləcək dədəm! Yetişiin!

Əli bəy gözünü açdı və son sözünü qırıq-qırıq dedi: - Ağ...lama... Bu... göstərdik...lərimi... sənə verirəm... Mənim... tabutumu... bayrağımla... örtün...

Əşhədu ən la ilahə iləllah,

Əşhədu ən la... Muhəmmədən Rəsulullah.

Və Əli bəy bu dünyaya əbədi olaraq gözünü yumdu və bir daha da açmadı. Kiçik Əli isə qıy çəkdi və gözləmədiyi bu vəziyyətdən huşunu itirdi.

Əli bəyin vəsiyyətini kiçik Əli bilirdi. O, tezcə vəsiyyəti dedi.

18 mart 1940-cı ildə Əli bəyi dəfn etdilər. Onu Azərbaycanın üç rəngli, ay-ulduzlu bayrağı bükülmüş tabutu ilə son mənzilə yola saldılar. Əli bəyin ruhu bundan şad idi. Vəsiyyəti yerinə yetmişdi.Tabutunu sevdiyi və həyatı qədər əziz tutduğu bayrağı ilə örtdülər. O, bayrağı ilə sakitlik tapdı. Türk hissiyyatlı, islam etiqadlı, firəng qafalı, Azərbaycan məhəbbətli bayrağı ilə. Lakin, bir şeydən həmişə narahat qaldı; Onun sevimli nəvəsi heç vaxt bu faciəni unutmayacaqdı. Çünki, 17 mart onun üçün uşaqlığın son gecəsi idi. Bu ölüm nəvəsinin psixologiyasına ömrü boyu təsir edəcəkdi və harada Əli bəy xatırlansa, o, həmin anları xatırlayacaqdı.

Lakin, bir şeylə özünə təskinlik verəcəkdi; O, Böyük Əli bəy Hüseynzadənin nəvəsi idi. Əli bəyin fikri və fırçası ilə çəkdiyi bayraq və tarixi albom, yəni babasının verdiyi bu böyük xəzinə onun idi. Heç bir qüvvə bunları onun əlindən ala bilməyəcəkdi! Heç kəs Əli bəyin nəvəsi olmaq şərəfini ondan ala bilməyəcəkdi!

Sevindik NƏSİBOĞLU
02.03.2020 saat 19-34.